

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı


Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 191 (21.852)

10 oktyabr 2017-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Oktyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilib.

Dövlətimizin başçısı iclası giriş nitqi ilə açaraq bildirib ki, bu ilin doqquz ayında ölkəmiz uğurla və hərtərəfli inkişaf edib, bütün sahələrdə dinamik inkişaf təmin olunub. Doqquz ayda iqtisadi göstəricilərimiz də çox müsbətdir. Qeyri-neft iqtisadiyyatımız 2,5 faiz artıb. Bu, həm uğurlu islahatlarımızın göstəricisidir, həm də onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi məsələləri öz həllini uğurla tapıbdır. Qeyri-neft sektorunun sənaye hissəsi də uğurla inkişaf edir. Qeyri-neft sənayesi 9 ayda 3,1 faiz artıb. Bu da sənayeləşmə siyasətimizin gözəl nəticəsidir.

Prezident İlham Əliyev qeyd edib ki, bu ilin 9 ayında Azərbaycanın valyuta ehtiyatları 4,5 milyard dollar artaraq, 42 milyard dollar səviyyəsinə çatıb. Valyuta ehtiyatlarımız, ümumiyyətlə, iqtisadi imkanlarımız müstəqilliyimizin əsas şərtlərindən biridir.

Sonra təhsil naziri Mikayıl Cabbarov, “Azəravtoyol” Açıq Səhmdar Cəmiyyətinin sədri Saleh Məmmədov, Bakı Nəqliyyat Agentliyinin baş direktoru Vüsal Kərimli məruzələrlə çıxış ediblər.

Azərbaycan Prezidenti iclasda yekun nitqi söyləyib.

## Heydər Əliyev Muzeyində açıq dərs keçilib

***Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində Naxçıvan şəhər 2 nömrəli tam orta məktəbin şagirdlərinin iştirakı ilə “Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycanın xilaskarı və qurucusudur” mövzusunda açıq dərs keçilib. Tədbirdə muzeyin bələdçisi Hafizə Seyidzadə məruzə edib.***

Bildirilib ki, ölkəmizə rəhbərliyinin hər iki dövründə dahi şəxsiyyətin Vətənimiz qarşısındakı misilsiz xidmətləri Azərbaycanın müstəqilliyini təmin etməklə bərabər, həm də onun müasir inkişafını şərtləndirib.

Qeyd olunub ki, görkəmli dövlət xadimi Heydər Əliyevin 1990-1993-cü illərdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi Azərbaycanın müstəqilliyinin əldə edilməsi, möhkəmləndirilməsi və inkişaf etdirilməsi baxımından çox mühüm bir mərhələ təşkil edir. Məhz həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində dövlət rəmzlərimiz haqqında qərar qəbul edilib, Naxçıvan Muxtar Respublikasının adından “sovet sosialist” sözləri çıxarılıb, muxtar respublikanın təhlükəsizliyinin təmin olunması üçün mühüm addımlar atılıb. Eyni zamanda qonşu Türkiyə və İranla ikitərəfli əlaqələrin təməli qoyulub.

Vurğulanıb ki, xalqın tələbi, ölkədə yaranmış böhranlı şərait, o vaxtlar hakimiyyətdə olanların siyasi savadsızlığı və səriştəsizliyi üzündən yaranmış hakimiyyətsizlik, xaos, torpaqlarımızın bir hissəsinin işğal olunması, ölkəmizin müstəqilliyi üçün yaranmış real təhlükə 1993-cü il iyunun 15-də görkəmli dövlət xadimi Heydər Əliyevin yenidən Azərbaycanda siyasi hakimiyyətə qayıtmasını zəruri edib. Beləliklə, 15 İyun xalqımızın tarixinə Milli Qurtuluş Günü kimi daxil olub. Ümummilli lider Heydər Əliyevin 1993-cü ildə Azərbaycanda siyasi hakimiyyətə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yaranıb, elmi əsaslara söykənən müstəqil dövlət quruculuğu prosesinə start verilib. Ulu öndərin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsində 1994-cü ilin mayında Azərbaycan Ordusunun əks-hücumundan qorxuya düşən düşmən atəşkəs müqaviləsini imzalamağa məcbur olub, ölkəmizin milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələrin yaradılmasına başlanılıb. Eyni zamanda həmin ilin sentyabrında müstəqil Azərbaycanın iqtisadi inkişafında mühüm rol oynayan “Əsrin müqaviləsi” imzalanıb. Bundan sonra tarix üçün çox qısa bir dövrdə Azərbaycan sürətlə inkişaf edərək dünya dövlətləri sırasında öz layiqli yerini tutub.



Diqqətə çatdırılıb ki, bu gün Azərbaycan ulu öndər Heydər Əliyevin yolu ilə inamla irəliləyir. Ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə uğurlar qazanılır. Blokada şəraitində yaşamasına baxmayaraq, Naxçıvan Muxtar Respublikası sürətlə inkişaf edir, şəhər, qəsəbə və kəndlər yenidən qurulur. Ötən dövr ərzində muxtar respublikanın müdafiə qabiliyyəti gücləndirilib, makroiqtisadi sabitlik bərqərar olunub, iqtisadi inkişafa təkan verilib, əhalinin yaşayış səviyyəsi yaxşılaşdırılıb. Bütün bunlar ulu öndər Heydər Əliyev yoluna sədaqətin və Milli Qurtuluşdan başlanan intibahın bəhrələridir.

Sonra şagirdlər muzeyin ekspozisiyası ilə tanış olublar.

✍ **Nail ƏSGƏROV**

## *“Stomatologiyada multidissiplinar yanaşma”* mövzusunda elmi-praktik konfrans



***Ötən şənbə günü Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin, Naxçıvan Dövlət Universitetinin, Azərbaycan İmplantoloq İctimai Birliyinin təşkilatçılığı ilə “Stomatologiyada multidissiplinar yanaşma” mövzusunda elmi-praktik konfrans keçirilib.***

Əvvəlcə iştirakçılar ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər.

Naxçıvan Muxtar Respublika Xəstəxanasında keçirilən tədbiri Naxçıvan Muxtar Respublikası səhiyyə nazirinin müavini Samrat Gəncəyeva açaraq bildirib ki, səhiyyə sisteminin inkişafına dövlət qayğısının get-gedə artırılması, bu sahənin maddi-texniki bazasının, kadr potensialının gücləndirilməsi, infrastrukturun yenidən qurulması digər sahələr kimi, stomatologiya sistemində də mühüm irəliləyişlərə, ixtisaslı kadr potensialının artırılmasına şərait yaradıb.

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov qeyd edib ki, universitetdə stomatologiya ixtisasının açılması bu sahədə ixtisaslı kadrların hazırlanmasına vacib töhfələr verir. Vurğulanıb ki, Naxçıvan Dövlət Universitetinin Türkiyə universitetləri ilə əlaqələri ilbəil genişlənir. Belə əlaqələr zamanı tədrisin təşkili və tibb elminin aktual problemlərinə həsr olunmuş birgə elmi tədqiqatların aparılması, onların nəticələri əsasında konfrans və seminarların keçirilməsi, diaqnostikanın, profilaktika və müalicənin yeni metodlarının tətbiqi məsələlərinin koordinasiyası və elmi-praktik informasiyaların mübadiləsi nəzərdə tutulur.

Tədbirdə Azərbaycan İmplantoloq İctimai Birliyinin sədri, “İmplandent” Klinikasının baş həkimi, tibb üzrə fəlsəfə doktoru Cabbar Həsənov, stomatoloqlardan Rövşən Məmmədov, Yıldırım Özgür, Cavid Əhmədbəyli, Esin Özlek və digərləri “Diş əti xəstəliklərinin qeyri-cərrahi müalicəsi”, “Endodontiyada irriqasiya aktivasiya yöntəmləri”, “İmplantologiyada sadədən mürəkkəbə”, “Kompozit restovrasiyalarda rəng anlayışı” və digər mövzularda çıxışlar edib, dünya praktikasındakı son yeniliklərdən söhbət açıblar.

Sonda elmi müzakirələr aparılıb, suallar cavablandırılıb, konfransda iştirak edən stomatoloqlara və Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin Stomatologiya ixtisası üzrə təhsil alan tələbələrinə sertifikatlar təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Gələn həftə növbəti əmək yarmarkalarına start veriləcək

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il yanvarın 11-də imzaladığı Sərəncamla təsdiq edilmiş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası muxtar respublikada işaxtaranların səmərəli məşğulluğunun təmin edilməsinə, peşə hazırlığının əmək bazarının tələblərinə uyğunlaşdırılmasına, işaxtaran şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə əlverişli şərait yaradıb. Bu istiqamətdə reallaşdırılan aktiv məşğulluq tədbirlərindən biri də əmək yarmarkalarının keçirilməsidir.

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətindən aldığımız məlumata görə, xidmət tərəfindən cari ilin əvvəlində bu məqsədlə muxtar respublikanın əmək bazarında tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə təhlillər aparılıb, müəssisə və təşkilatlarda mövcud olan boş iş yerlərinin hər ay toplanması təmin edilib, müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatın müəyyənləşdirilməsi məqsədilə rübdə bir dəfə olmaqla, müvafiq müəssisələrdə sorğular keçirilib.

Məlumatda bildirilir ki, muxtar respublikada növbəti əmək yarmarkalarına oktyabrın 17-də start veriləcək. Həmin gün tədbir Sədərək rayonunun Heydərabad Qəsəbə Mərkəzində təşkil olunacaq. Oktyabr ayının 18-də Kəngərli rayonunda bu bölgənin işaxtaran sakinlərinə boş iş yerləri təqdim ediləcək. Oktyabrın 19-da keçiriləcək əmək yarmarkasının ünvanı Şahbuz şəhərindəki “Araz” kinoteatrının binası olacaq. Culfa rayonunun işaxtaran sakinləri bu dövlət qayğısından ayın 20-də yararlana biləcəklər. Oktyabrın 24-də ordubadlılara, 25-də babəklilərə, 26-da isə şərurlulara boş iş yerləri təqdim olunacaq.

Naxçıvan şəhərində əmək yarmarkası oktyabr ayının 27-də Naxçıvan Regional Peşə Tədris Mərkəzində keçiriləcək.

✍ **Səbuhi HƏSƏNOV**

## Beynəlxalq Apimondia Arıçılıq Konqresində Naxçıvan Muxtar Respublikası “Arıçılar İctimai Birliyi” də təmsil olunub

***Son illər muxtar respublikada digər təsərrüfat sahələri kimi, arıçılığın inkişafına da böyük qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri sahibkarlarla keçirilən görüşdə arıçılığın inkişaf etdiyi ölkələrlə əlaqələrin genişləndirilməsi, bu ölkələrdə keçirilən tədbirlərdə arıçıların iştirak etmələrinin təmin edilməsi ilə bağlı mühüm tapşırıqlar vermişdir.***

Beynəlxalq təcrübənin öyrənilməsi üçün arıçıların xarici səfərlərinin təşkili məqsədilə İqtisadiyyat Nazirliyi tərəfindən ötən günlərdə Türkiyə Respublikasının İstanbul şəhərində keçirilən 45-ci Beynəlxalq Apimondia Konqresində Naxçıvan Muxtar Respublikası “Arıçılar İctimai Birliyi” sədrinin iştirakı təmin edilmişdir.

Beynəlxalq konfransda 120 dövləti təmsil edən arıçılıq məhsulları istehsal edən şirkətlər, arıçılıq məhsullarının satışı ilə məşğul olan holdinqlər, ictimai birliklər, alim və mütəxəssislər olmaqla, ümumilikdə, 14 min nümayəndə iştirak etmişdir.

Konfransda iştirak edən mütəxəssislər beynəlxalq arıçılıq sahəsində aparılan elmi-tədqiqat işləri barədə təqdimatlarla çıxış etmiş, arı xəstəliklərinin tədqiq edilməsi, müxtəlif mənşəli zərərvericilərə qarşı müalicə vasitələrinin tətbiqi, arıçılar arasında informasiya-məsləhət işlərinin genişləndirilməsi və saxta bal tədarükçüləri ilə mübarizə barədə müzakirələr aparılmışdır.

Beynəlxalq konqresdə ilk dəfə olaraq iştirak edən Naxçıvan Muxtar Respublikası “Arıçılar İctimai Birliyi”nin sədri arıçılığın bütün sahələrini əhatə edən mövzular barədə konqres iştirakçıları ilə birgə söhbətlər aparmış, arıçılığın inkişafı və bu sahədə ən son texnologiyaların tətbiqi ilə bağlı seminarlarda iştirak etmişdir.

Qeyd edək ki,1897-ci ildə yaradılmış Apimondia Beynəlxalq Arıçılıq Təşkilatı tərəfindən təşkil olunan bu cür elmi tədbirlər arıçıların beynəlxalq əlaqələrin inkişafına və bu sahədəki təcrübənin mənimsənilməsinə mühüm təsir göstərməkdədir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Ümummilli liderimiz Heydər Əliyevin siyasi xəttinin uğurla davam etdirilməsi Azərbaycanı yeni inkişaf mərhələsinə çıxarıb

*Ümummilli liderimiz Heydər Əliyevin qurucusu və memarı olduğu müstəqil Azərbaycan Respublikası bu gün dünyada sosial-iqtisadi baxımdan sürətlə inkişaf edən, beynəlxalq mövqeləri gündən-günə güclənən, regional informasiya mərkəzinə çevrilən bir dövlət kimi tanınmaqdadır. Əldə edilən bu nailiyyətlər həm də ölkə Prezidenti cənab İlham Əliyevin son 14 ildə ulu öndərin yolunu uğurla davam etdirməsinin nəticəsidir. Hələ 2003-cü ilin prezident seçkiləri ərəfəsində ulu öndərimiz Heydər Əliyev Azərbaycan xalqına müraciətində deyirdi: **“...İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm”.***

Dövlət başçısının iqtisadi islahatları vaxtında həyata keçirməsi, apardığı çevik, qətiyyətli və cəsarətli siyasət Azərbaycanın gücünü daha da artırır. 2013-cü il oktyabrın 9-da keçirilən növbəti prezident seçkilərində Azərbaycan xalqının cənab İlham Əliyevi yenidən Azərbaycan Respublikasının Prezidenti seçməsi məhz qeyd etdiyimiz məqamlarla əlaqədardır.

Prezident İlham Əliyev ulu öndərimizin siyasi xəttinə dərin sədaqət nümayiş etdirir, verdiyi bütün vədlərə əməl edir. Nəticədə isə xalqın böyük sevgisini qazanıb. Dövlət başçısının iqtisadi strategiyasının əsas istiqamətlərini də ulu öndərin demokratik dövlət quruculuğuna, Azərbaycanın iqtisadi inkişafına və ölkəmizin qüdrətinin möhkəmləndirilməsinə yönəlmiş ideyalarının reallaşdırılması təşkil edib. Azərbaycan xalqının ümummilli lideri tərəfindən müəyyən edilmiş sosial-iqtisadi inkişaf siyasəti ötən illər ərzində Prezident cənab İlham Əliyevin rəhbərliyi altında daha böyük uğurlara yol açıb. Bu siyasət Azərbaycanın dünya iqtisadi sisteminə uğurla inteqrasiya etməsi, ölkədə sosial problemlərin həlli və əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, yoxsulluğun sürətlə azaldılması, işsizlik probleminin həlli və infrastrukturun yenidən qurulması istiqamətində mühüm dövlət proqramlarının ardıcıl həyata keçirilməsi üçün möhkəm təməl yaradıb.

Uzunmüddətli dövr üçün nəzərdə tutulan iqtisadi siyasət konsepsiyası, aparılan islahatlar ölkənin qüdrətini və vətəndaşlarımızın rifah halının yüksəlişini təmin edib. Prezident İlham Əliyev bu məqamı nəzərdə tutaraq deyib: ***“1993-2003-cü illər sabitlik və inkişaf illəri kimi tarixdə qalır. Bu illər ərzində görülmüş işlər bu gün ölkəmizin uğurlu inkişafına xidmət göstərir. O illərdə başlanmış layihələr bu gün uğurla davam etdirilir. Əlbəttə, Azərbaycanın bugünkü reallıqlarını təsəvvür etmək üçün biz o illərə qayıtmalıyıq... Son on il ərzində Heydər Əliyev siyasəti Azərbaycanda davam etdirilmişdir. 2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək bəyan etmişdim ki, əgər mənə etimad göstərilərsə, mən bu siyasətə sadiq qalacağam və bu siyasəti davam etdirəcəyəm”.***

2003-cü ildən iqtisadi strategiyanın yeni prioritetləri və inkişaf perspektivləri müəyyən edilmişdir. Ölkədə sosial-iqtisadi inkişafın davamlı dinamikasını təmin etmək üçün qeyri-neft sektorunun sürətlə inkişaf etdirilməsi, infrastruktur obyektlərinin beynəlxalq standartlara uyğun şəkildə yenidən qurulması əsas vəzifə kimi qarşıya qoyulmuşdur. Ölkədə əlverişli investisiya mühiti və yeni iş yerləri yaratmaq üçün digər sahələrlə yanaşı, azad sahibkarlıq fəaliyyətinin inkişafını təmin etmək, sahibkarlıq strukturlarının dövlət köməyi vasitəsilə daha da təkmilləşdirilməsi prioritet vəzifələrdən idi. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramları regionlarda mövcud olan əmək ehtiyatlarından, təbii və iqtisadi potensialdan səmərəli istifadə, iqtisadiyyatın qeyri-neft sektorunun inkişafını sürətləndirmək və aqrar sektorda islahatları dərinləşdirmək, əhalinin məşğulluğunu artırmaq, yoxsulluğun səviyyəsini azaltmaq, müasirtipli müəssisələr, yeni iş yerləri yaratmaq istiqamətində sistemli tədbirlərin həyata keçirilməsi üçün hüquqi baza yaratmışdır.

Dövlət proqramlarının qarşıya qoyduğu vəzifələrin həyata keçirilməsi özünü bütün sahələrdə göstərmişdir. Regionlarda dünya standartlarına cavab verən istehsal və sənaye müəssisələri yaradılmışdır. Bu gün Azərbaycanda bazar iqtisadiyyatı prinsiplərinin tam bərqərar olması, xarici investisiyaların qeyri-neft sektoruna, xüsusən də regionların inkişafına yönəldilməsi, əlverişli sahibkarlıq və biznes mühitinin formalaşdırılması, işsizlik probleminin həlli, əhalinin həyat şəraitinin yaxşılaşdırılması məsələləri Azərbaycan Prezidentinin yeritdiyi sosial-iqtisadi siyasətin prioritet istiqamətləri kimi diqqəti cəlb edir. Həyata keçirilən məqsədyönlü siyasət nəticəsində 2004-cü ildən bəri yaradılan çoxsaylı yeni iş yerləri işsizliyin kəskin şəkildə aşağı düşməsinə səbəb olmuşdur.

Dövlətin əsas sütunlarından birini təşkil edən ordu hər bir ölkənin ərazi bütövlüyünün, suverenliyinin və müstəqilliyinin təminatçısıdır. Azərbaycanda mütəşəkkil, güclü və qüdrətli milli ordunun əsasını qoyan ümummilli liderimizin ideyalarını davam etdirən Prezident İlham Əliyev ordu quruculuğunu prioritet sahə kimi müəyyənləşdirmişdir. Ali Baş Komandanın rəhbərliyi ilə hərbi birləşmələrin maddi-texniki bazası daha da gücləndirilmiş, ən müasir texnikalar alınmış, milli müdafiə sənayesi formalaşdırılmışdır.

Bu gün böyük enerji ixracatçısına çevrilmiş Azərbaycanda hasil olunan karbohidrogen ehtiyatları neft-qaz boru kəmərləri, terminallar və dəmir yolu vasitəsilə Avropa və dünya bazarlarına çatdırılır. Dünyada gedən iqtisadi proseslərin, nəhəng enerji layihələrinin fəal iştirakçısına və mərkəzinə çevrilmiş Azərbaycanın beynəlxalq aləmə inteqrasiyası ilbəil daha da sürətlənir, ölkəmiz dünyanın enerji təhlükəsizliyinə mühüm töhfələr verir. Respublikamızın geosiyasi mövqeyi ilə bağlı tranzit imkanlarının genişləndirilməsi, beynəlxalq neft-qaz kəmərlərinin yeni şəbəkəsinin formalaşmasında fəal iştirakının təmin edilməsi iqtisadiyyatımızın gələcək inkişafı üçün çox mühüm əhəmiyyətə malikdir. Bu il sentyabrın 14-də Bakı şəhərindəki Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında sazişin imzalanması Azərbaycanın vacib iqtisadi və enerji tərəfdaşı kimi dünyada mövqelərini daha da möhkəmləndirir, gələcəkdə karbohidrogen ehtiyatlarının işlənməsi və ixracı hesabına da böyük gəlirlər əldə edəcəyinə təminat verir. Ölkə Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: ***“Bu reallıqları biz özümüz yaratmışıq, Azərbaycan xalqının istedadı, zəhməti, ulu öndər Heydər Əliyev siyasəti hesabına yaratmışıq. Biz bu siyasətə bundan sonra da sadiq olacağıq”.***

Ötən il ölkəmiz üçün çox böyük əhəmiyyət daşıyan referendumda xalqımız böyük ruh yüksəkliyi ilə iştirak etmişdir. Bu referendum Azərbaycan xalqının Prezident İlham Əliyevin həyata keçirdiyi islahatları dəstəklədiyini, onu özünün şəriksiz lideri kimi gördüyünü bir daha sübut etmişdir.

Konseptual əsasları ümummilli lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilən inkişaf xətti Naxçıvan Muxtar Respublikasının timsalında əyani şəkildə özünü göstərməkdədir. Heydər Əliyev quruculuq xəttinin muxtar respublikada uğurla həyata keçirilməsi nəticəsində Naxçıvan bu gün öz inkişafının yeni mərhələsini yaşayır.

Dövlət başçısı müntəzəm olaraq Naxçıvan Muxtar Respublikasına səfərə gəlir, elm, təhsil və mədəniyyət, idman, səhiyyə, sosial təminat, energetika, meliorasiya, yol tikintisi və sahibkarlıq, eləcə də hərbi quruculuq sahələrini əhatə edən obyektlərin açılışında iştirak edir. Azərbaycan Prezidenti Naxçıvan Muxtar Respublikasının 80, 85 və 90 illik yubileylərinin dövlət səviyyəsində qeyd olunması haqqında sərəncamlar imzalamış, Naxçıvanın tarixinə dair yeni elmi araşdırmalar aparılmış, milli dəyərlərin inkişafı, tarixi abidələrin qorunması və bərpası istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir.

***“Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam”***, – deyən cənab İlham Əliyev qısa müddət ərzində ümumxalq etimadı qazanmışdır. Azərbaycanın qüdrətli dövlətə çevrilməsi, xalqın rifah halının daha da yaxşılaşdırılması, insan hüquqlarının daha geniş şəkildə qorunması, seçki təcrübəsinin təkmilləşdirilməsi və digər addımlar ölkə rəhbərinin siyasi fəaliyyətinin əsasını təşkil edir. Ölkə Prezidentinin Azərbaycanı sürətlə inkişaf edən və beynəlxalq aləmdə nüfuzu durmadan artan dövlətə çevirməsi həm də ulu öndərimizin arzularını reallaşdırmasıdır.

**“Şərq qapısı”**

*10 oktyabr yanğınsöndürənlərin peşə bayramıdır*

## Muxtar respublikada yanğın təhlükəsizliyi tədbirləri diqqət mərkəzindədir

***Ümummilli liderimiz Heydər Əliyev hər il oktyabr ayının 10-nun “Yanğınsöndürənlərin peşə bayramı günü” kimi qeyd olunması haqqında Sərəncam imzalamışdır. 2002-ci ildən etibarən yanğınsöndürənlər hər il oktyabrın 10-da peşə bayramlarını qeyd edirlər.***

1969-1982-ci illərdə Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə bütün sahələrdə olduğu kimi, yanğın təhlükəsizliyi orqanlarında da problemlər öz həllini tapmışdır. ***“Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır”***, – deyən ümummilli liderimizin ikinci dəfə ali hakimiyyətə qayıdışından sonra isə yanğın təhlükəsizliyi sisteminin davamlı inkişafını təmin edən ardıcıl tədbirlər görülmüşdür. Yanğından mühafizə xidmətinin maddi-texniki və normativ-hüquqi bazasının təkmilləşdirilməsi, kadr ehtiyatının yaradılması, şəxsi heyətin döyüş və peşə hazırlığının artırılması kimi vacib məsələlər öz həllini tapmışdır. 1997-ci ildə “Yanğın təhlükəsizliyi haqqında” Azərbaycan Respublikası Qanununun qəbul olunması yanğın təhlükəsizliyi və dövlət yanğın nəzarəti sisteminin təşkilinin hüquqi əsaslarını və prinsiplərini müəyyən etmişdir. Sonrakı illərdə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində yanğından mühafizə sistemi daha da təkmilləşdirilmiş, şəxsi heyətin sosial-məişət şəraiti yüksəlmiş, təminat və təchizat məsələləri öz uğurlu həllini tapmışdır.

Muxtar respublikada ilk yanğın komandası 1927-ci il iyunun 15-də yaradılmışdır. 8 nəfərdən ibarət yanğın komandasının şəxsi heyətinin sayı sonrakı illərdə artırılaraq 14 nəfərə çatdırılmış və yanğın maşınları ilə təchiz edilmişdir. Naxçıvan şəhərində yaradılmış peşəkar yanğın hissəsi 1981-ci ildə hərbiləşdirilmiş yanğın hissəsinə çevrilmiş, rayonlarda peşəkar yanğın hissələri fəaliyyətə başlamışdır. Naxçıvan Muxtar Respublikasında da etibarlı yanğından mühafizə sistemi formalaşdırılmış, yanğınların qarşısının alınması və nəticələrinin aradan qaldırılması diqqət mərkəzində saxlanılmışdır.



Ölkəmizin iqtisadi inkişafına dayaq olan, əhalinin əmlakını qoruyan yanğın təhlükəsizliyi orqanları Naxçıvan Muxtar Respublikasında diqqət və qayğı ilə əhatə olunmuş, texniki bazanın gücləndirilməsi, şəxsi heyətin maddi rifah halının yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq qərarlar qəbul edilmişdir. Belə ki, 2002-ci ildə Sədərək rayonunda yeni ştat vahidləri verilməklə hərbiləşdirilmiş yanğın hissəsi yaradılmış və onun fəaliyyətinin təmin edilməsi üçün inzibati bina və texniki qaraj tikilmiş, 2003-cü ildə isə Ordubad və Şahbuz rayonlarında peşəkar yanğın hissələri hərbiləşdirilmiş yanğın hissələrinə çevrilmişdir. 2004-cü ildə Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinə idarə statusu verilmiş, onun yerli qurumları xidmətdən şöbəyə çevrilmiş, Kəngərli rayonunda yeni ştat vahidləri verilməklə hərbiləşdirilmiş yanğın hissəsi yaradılmışdır.

2006-cı ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumlarının Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin tabeliyinə verilməsi ilə yanğın təhlükəsizliyi orqanlarının fəaliyyətində yeni mərhələnin başlanğıcı qoyulmuşdur. Həmin dövrdən başlayaraq Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binaları əsaslı təmir edilmiş, Kəngərli, Şahbuz, Ordubad, Şərur, Babək və Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələri üçün yeni inzibati binalar və texniki qarajlar tikilərək istifadəyə verilmişdir. Naxçıvan şəhəri, Şərur, Babək və Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin yanğınsöndürmə avtomobilləri müasirtipli radiostansiyalarla təmin olunmuş, nazirlik və onun struktur qurumları ilə etibarlı rabitə əlaqəsi yaradılmışdır. Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumlarının maddi-texniki bazasının möhkəmləndirilməsi və müasirləşdirilməsi üçün xeyli sayda texnika, xüsusi geyimlər, texniki vasitələr, cihazlar və avadanlıqlar da alınmışdır.

Ötən müddət ərzində yanğın təhlükəsizliyi orqanlarında xidmətin təşkili, döyüş və peşə hazırlığı üzrə beynəlxalq təcrübənin öyrənilməsi, texniki təchizat və təminatın müasir standartlara uyğunlaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində saxlanılmışdır. Yanğın təhlükəsizliyi orqanlarının ixtisaslı kadrlarla komplektləşdirilməsi, gənc kadrların hazırlanması məqsədilə 2006-2017-ci illərdə, ümumilikdə, 117 nəfər Azərbaycan, Belarus və Ukraynadakı akademiyalara, həmçinin Bakı Yanğın Texniki Kollecinə təhsil almağa göndərilmişdir. Sevindirici haldır ki, onlardan 103 nəfəri təhsillərini başa vuraraq bu gün Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumlarında xidmətlərini layiqincə davam etdirir.

Yanğın təhlükəsizliyi məsələləri ilə bağlı əhalinin maarifləndirilməsi istiqamətində müxtəlif növ təbliğat materiallarından və videomateriallardan istifadə edilmiş, idarə, müəssisə və təşkilatlarda maarifləndirici tədbirlər keçirilmiş, bu işdə kütləvi informasiya vasitələrinin imkanlarından geniş istifadə olunmuşdur. Muxtar respublikada sahibkarlıq fəaliyyəti ilə məşğul olan 535 subyektin əmlakı qanunvericiliklə müəyyən edilmiş qaydada yanğından icbari sığorta olunmuşdur.

Yanğın təhlükəsizliyi orqanlarının əməkdaşları muxtar respublika ərazisində baş vermiş yanğınların qarşısının alınması və söndürülməsi ilə yanaşı, yol-nəqliyyat qəzalarının nəticələrinin aradan qaldırılmasında, subasmaya məruz qalan ərazilərdən suyun çəkilməsi və xilasetmə işlərinin aparılmasında nazirliyin mülki müdafiə qüvvələri ilə birgə fəaliyyət göstərərək qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirmişlər.

Görülən işlər və əldə olunan nailiyyətlər onu deməyə əsas verir ki, bu gün Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yanğınsöndürənləri əhalinin təhlükəsiz yaşamasının, iş və istirahətinin təmin olunması üçün hazırdır. Şəxsi heyət bundan sonra da öz fəaliyyətini müasir dövrün tələbləri səviyyəsində quracaq, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, yanğın təhlükəsizliyinin etibarlı təmin olunması naminə səy və bacarığını əsirgəməyəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Mətbuat Şurasının V konfransı keçirilib

*Oktyabrın 7-də Naxçıvan Mətbuat Şurasının V konfransı keçirilib.*



Konfransda Mətbuat Şurasının üzvləri, “Şərq qapısı”, şəhər və rayon qəzetlərinin, “Əcəmi” Nəşriyyat-Poliqrafiya Birliyinin əməkdaşları, kütləvi informasiya vasitələrinin nümayəndələri, ziyalılar və qocaman jurnalistlər iştirak ediblər.

Konfransa Naxçıvan Mətbuat Şurasının üzvü Elxan Məmmədov sədrlik edib. Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov hesabat məruzəsi ilə çıxış edərək son beş ildə görülən işlər haqqında danışıb. Qeyd olunub ki, şura Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin muxtar respublika mətbuatının qarşısına qoyduğu vəzifələrin yerinə yetirilməsinə nəzarəti gücləndirib. Mətbuatın problemləri araşdırılıb, “Şərq qapısı”, şəhər və rayon qəzetlərində aylıq monitorinqlər davam etdirilib, lazımı tövsiyələr verilib. Bildirilib ki, Mətbuat Şurasının üzvləri müxtəlif mövzularda keçirilən yaradıcılıq müsabiqələrində fəal iştirak ediblər. Keçirilən müsabiqələrə 200-dən artıq yazı təqdim olunub, 25-dən çox əməkdaş I, II, III yerlərə layiq görülüb, 30 əməkdaş isə həvəsləndirici mükafat alıb. Bununla yanaşı, qəzet redaksiyalarında da seminar-treninqlər keçirilib.

Hesabat məruzəsi ətrafında müzakirələrdə “Şərq qapısı” qəzetinin baş redaktoru Mehriban Sultanova, “Nuh yurdu” qəzetinin redaktoru Qafar Qənbərov çıxış ediblər.

Sonra konfransda 9 nəfərdən ibarət idarə heyətinin tərkibi seçilib. Naxçıvan Mətbuat Şurasının İdarə Heyətinin üzvləri Qahirə Hüseynova və Rauf Əliyev Rövşən Hüseynovun yenidən Mətbuat Şurasının sədrliyinə namizədliyini irəli sürüblər. Təklif səsə qoyulub və qəbul olunub.

Konfransda Naxçıvan Mətbuat Şurasının Nəzarət-Təftiş Komissiyasının da yeni tərkibi müəyyənləşib. Komissiyanın üzvlüyünə namizədlər səsə qoyulub və qəbul olunub. Səbuhi Həsənov Nəzarət-Təftiş Komissiyasının sədri seçilib.

Konfransda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri Əli Həsənov çıxış edərək Naxçıvan Mətbuat Şurasının İdarə Heyətinə yeni seçilən üzvləri təbrik edib və onlara fəaliyyətlərində uğurlar arzulayıb.

Bildirilib ki, muxtar respublikada kütləvi informasiya vasitələrinə göstərilən qayğı Mətbuat Şurasının fəaliyyəti üçün də geniş imkanlar açır. Jurnalistikanın prinsiplərinə əməl edilməsinə ictimai nəzarətin həyata keçirilməsi, dövlət orqanları və ictimaiyyətlə mətbuat arasında əlaqənin və etimadın möhkəmləndirilməsi, söz, fikir və məlumat azadlığına daha geniş imkanların yaradılması şuranın qarşısında duran əsas vəzifələrdir.

Ötən dövr ərzində Mətbuat Şurası bu istiqamətdə fəaliyyətini qurmağa çalışmış, müəyyən tədbirlər, seminarlar, rayonlarda qəzet müzakirələri keçirilmişdir.

Təəssüf ki, bunlar ardıcıl xarakter daşımamışdır. Buna görə də Mətbuat Şurasının yeni seçilən İdarə Heyəti işdə dönüş yaratmalı, Ali Məclis Sədrinin qarşıya qoyduğu vəzifələr əsas fəaliyyət istiqaməti olmalı, tədbirlər planı hazırlanaraq icrası təmin edilməlidir.

Mətbuat Şurası muxtar respublikamızda nəşr olunan qəzetlərin fəaliyyətinin yaxşılaşdırılmasını konkret istiqamət kimi götürməlidir. Şuranın üzvləri qəzetlərin monitorinqlərinin aparılmasında yaxından iştirak etməli, redaksiyalarda yaradıcılıq müzakirələri aparılmalı, qəzetlərdə dərc olunan yazılar təhlil olunmalı, buraxılan nöqsanlar araşdırılmalıdır.

Qeyd edilib ki, bu gün mövcud imkanlardan düzgün istifadə olunmur. İstər şura, istərsə də mətbuat orqanları ictimai nəzarətçi kimi öz funksiyasını tələb olunan səviyyədə yerinə yetirmirlər. Qəzet səhifələrində şura üzvlərinin günün mövzusuna aid təhlili məqalələri dərc edilməli, bu yazılar nümunə gücündə olmalı, istiqamət verməlidir.

Mətbuat Şurası İdarə Heyətinin iclasları yaxşı hazırlanmalı, muxtar respublika mətbuatının mövcud vəziyyəti ilə bağlı müzakirə və təhlillər aparılmalıdır. Şura kollektiv fəaliyyətin təmin olunması qayğısına qalmalı, qəzet əməkdaşlarının iştirakı ilə müxtəlif mövzularda seminar-treninqlər təşkil olunmalıdır.

Ali Məclis Aparatının rəhbəri qeyd edib ki, yaradıcılıq işi daim axtarış, yenilik və operativlik tələb edir. Lakin muxtar respublikanın bəzi mətbuat orqanları hələ də öz şablon üslublarından uzaqlaşa bilmirlər. Mətbuatda ziyalı sözü, oxucu münasibəti, ictimaiyyətin mövqeyi görünmür. Kənar müəlliflərlə iş zəif qurulub. Təbii ki, bu da qəzetlərin oxunaqlığını xeyli aşağı salır. Mətbuat Şurası İdarə Heyətinin üzvləri bu sahədə fəaliyyətlərini daha da gücləndirməli, yaradıcılıq müsabiqələri keçirilməli, muxtar respublikanın müasir tarixinin, aparılan genişmiqyaslı quruculuq tədbirlərinin qəzet səhifələrində işıqlandırılmasına geniş yer verilməlidir.

Mətbuat Şurasının digər yaradıcılıq təşkilatları, xüsusilə Yazıçılar Birliyi ilə əlaqəsi zəifdir. Nə qədər acınacaqlı olsa da, mətbuat muxtar respublika ədəbi mühitindən uzaqlaşıb. Ədəbi nümunələrə qəzet səhifələrində az yer verilir. Halbuki bu əlaqələr nə qədər məhsuldar və sıx olsa, qəzetlərə oxucu marağı da bir o qədər artar. Ona görə də Mətbuat Şurası Yazıçılar Birliyi və digər yaradıcılıq təşkilatları ilə əlaqələri gücləndirməli, sanballı və günün ruhunu tutan ədəbi nümunələrə, şair və yazıçıların publisistik çıxışlarına qəzet səhifələrində geniş yer verilməlidir.

Bir sözlə, qarşıdakı 5 il ərzində Mətbuat Şurasının yeni seçilmiş tərkibi ciddi çalışmalı, Şuranın Nizamnamə tələbləri və buradan irəli gələn vəzifələr yerinə yetirilməlidir.

Kütləvi informasiya vasitələrinin fəaliyyəti və qarşıda duran vəzifələr barədə keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov bu vəzifələrdən danışaraq demişdir: ***“Mətbuat Şurasının işi canlandırılmalı, qəzetlərin monitorinqinin aparılmasına xüsusi fikir verilməli, yerlərdə müzakirələr keçirilməlidir. Şuranın üzvləri mütəmadi olaraq mətbuatda çıxış etməli, onların yazıları nümunə gücünə malik olmalı, gənc jurnalistləri istiqamətləndirməlidir”.***

Əli Həsənov muxtar respublika rəhbərinin qarşıya qoyduğu vəzifələrin və verdiyi tapşırıqların icrasında Mətbuat Şurasının üzvlərinə uğurlar arzulayıb.

Gündəlikdə duran məsələlərin müzakirəsi yekunlaşdıqdan sonra Naxçıvan Mətbuat Şurasının V konfransının qərar layihəsi oxunub və qəbul olunub.

Bununla da, Naxçıvan Mətbuat Şurasının V konfransı öz işini başa çatdırıb.

**“Şərq qapısı”**

*Ziyalı sözü*

# Mənəvi saflığa çağırış poeziyası

## 80 yaşını tamamlayan şairə Kəmalə Ağayeva ilə söhbət

***Qədim diyarımız tarixən həm də söz sənəti məkanı kimi tanınıb. Bu yurdun burada doğulan, boya-başa çatan, ölməz əsərlər yaradan, dünyada tanınan Hüseyn Cavidini, Mirzə Cəlilini, Məmməd Səidini... böyük qürurla xatırlayırıq. Həmin sənətkarların ədəbiyyatımızın qızıl fondunu təşkil edən qiymətli əsərləri xalqımızın mənəvi sərvətidir. Yaratdıqları ədəbi məktəbin nümayəndələri mərhum Müzəffər Nəsirli, Hüseyn Razi, Hüseyn İbrahimov, Elman Həbib ulu Naxçıvan torpağından ilham alaraq qədim diyarımızı yüksək sevgi ilə tərənnüm ediblər. Bu gün də öz yaradıcılıqları ilə oxucuların sevimlisinə çevrilən Kəmalə Ağayeva, Muxtar Qasımzadə, Asim Yadigar, İbrahim Yusifoğlu, gənc nəslin nümayəndələri Rahil Tahirli, Elxan Yurdoğlu və başqaları yaratdıqları əsərlərlə ədəbiyyatımıza töhfələrini verməkdədirlər. Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü Kəmalə Ağayevanın bu sənət adamları içərisində xüsusi yeri var.***



*Qısa tərcümeyi-halı:* 80 yaşı tamam olan Kəmalə Ağayeva yaradıcılığa şeirlə başlayıb. Mənzum dram, poema, oçerk, məqalə kimi müxtəlif janrlara da müraciət edib. İlk şeirini 12 yaşında yazıb. 20 yaşında Məhsəti Gəncəvinin həyatından bəhs edən “Məhsəti” mənzum pyesini qələmə alıb. Bu, onun dramaturgiya sahəsində ilk qələm təcrübəsi idi. İlk dəfə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulan 4 pərdəli mənzum faciə janrında yazılmış bu əsərin premyerası 1964-cü il oktyabrın 24-də olub.

Bu premyeradan sonra Kəmalə Ağayeva Naxçıvan teatrının ədəbi hissə müdiri təyin olunub və 30 il həmin vəzifədə çalışıb. Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrının təşkilatçılarından biri kimi 1990-cı ildən 2003-cü ilədək bu teatrın da ədəbi hissə müdiri işləyib. 20-dən çox şeir kitabının, 16 mənzum pyesin, 200-ə qədər oçerk və bədii yazıların müəllifidir. Şeirləri rus, fars, türkmən, özbək, tacik və başqa dillərə tərcümə olunub. Özü də tərcüməçilik fəaliyyəti ilə məşğul olub, fransız dilindən tərcümələr edib. Onlarla şeirinə müğənnilərin repertuarından düşməyən mahnılar bəstələnib. Rəsmi nümayəndə heyətlərinin tərkibində Amerikada, Türkiyədə, Fransada və başqa xarici dövlətlərdə olub. Doğma yurda böyük məhəbbətlə bağlılıq və mənəvi saflığa çağırış şeirlərinin leytmotivini təşkil edir.

Hazırda Bakıda yaşayan Kəmalə Ağayevanın bu günlərdə Naxçıvana gəldiyini eşidib onunla görüşməyi qərara aldıq. Telefon açdıq. Söhbətləşməyə razılıq verdi. Evlərində görüşüb həmsöhbət olduq.

***– Kəmalə xanım, söhbətimizə öz şeirinizlə başlamaq istəyirik:***

***Uşaqlıq çağlarım düşüb yadıma,***
***O əziz illəri anıram indi.***

***Nə vaxtdır ki, Naxçıvanda olmamısınız. Doğma yurda ayaq basanda hansı düşüncələr sizi öz ovsununa saldı?***

– Əlixan məhəlləsini tanımamış deyilsiniz. Orda doğulmuşam. Bu məhəllə Vətən qoynunda mənim kiçik vətənimdir. Romantik şairimiz Hüseyn Cavid də bu Əlixan məhəlləsində yaşadığı üçün bəziləri bura Cavid məhəlləsi də deyir. Dünyanın bir çox yerlərində olmuşam. Mənim üçün həmin Əlixan məhəlləsi gəzdiyim yerlərin hamısından gözəldir. Bu gün Naxçıvanın gözəl olmayan guşəsi yoxdur. Gördüyüm bir çox Avropa şəhərlərindən seçilmir. O şeirimi yazarkən nə Əlixan məhəlləsi, nə də Naxçıvan belə deyildi. Hər gəlişimdə gördüyüm Naxçıvan məni, sözün həqiqi mənasında, cavanlaşdırır. Gənclik həvəsi ilə yazmaq istəyirəm. Çünki bu gün gördüklərim doğma Naxçıvanın tarixidir. Bu tarixi yazanlar tarixdə yaşamaq hüququ qazanıblar. Torpaq o vaxt Vətən olur ki, övladları torpağa adicə torpaq kimi yox, Vətən kimi baxırlar. Naxçıvan bu gün əyalət deyil, inkişafının yeni mərhələsinə qədəm qoymuş beynəlxalq əhəmiyyətli bir şəhərdir. Qocaldıqca cavanlaşan bir yurd yeridir. Bu şəhərə həsr etdiyim şeirlərimin sayı-hesabı yoxdur. O şeirlər daxili dünyamın pıçıltılarıdır, yurd yerinə sevgimin ifadəsidir.

***– Bu da sizin şeirinizdir:***

***Mənim yurdum gülüstandır,***
***Yağış yağdı, gül islandı.***
***Bu yazılan nə dastandır,***
***Yazıldıqca yazılır hey?***

– Bunu təkcə mən demirəm. Naxçıvana respublikamızın başqa bölgələrindən, digər ölkələrdən qonaq gələn həmkarlarımla görüşəndə naxçıvanlı olduğumu bilib mənə deyirlər ki, xoşbəxt adamsan. Doğrudan da, belə bir yurdda doğulduğum üçün özümü xoşbəxtlərin xoşbəxti sayıram. Bu gün şəhərə çıxmışdım. Yolboyu böyük romantik şairimiz Hüseyn Cavidin “Mənim Tanrım gözəllikdir, sevgidir” misrasını dəfələrlə xatırladım. Gözəlliyə hərə bir cür baxır, bu təbiidir. İnsan gözəlliyi, təbiət gözəlliyi – bütün bunlar vəhdət halında olanda dünya bir qədər də gözəlləşir. Sevinirəm ki, mən bu gözəlliyi bir daha Naxçıvan dünyamda gördüm. Axşam Naxçıvan televiziyası ilə yayımlanan verilişlərdə muxtar respublikanın ucqar yaşayış məntəqələrində yaradılmış gözəllikləri görəndə isə təəccübümü saxlaya bilmədim. İnsan zəkası, insan əli hər şeyə qadirdir. Ancaq o insan xarüqələr yarada bilər ki, o, gözəlliyi duysun, onda torpağa, yurda məhəbbət hissi olsun.

***– “Doğma Naxçıvanım” şeirində dediyiniz kimi:***

***Gözəllik içində gördüm yurdumu,***
***Ona bəzək vuran əllərə alqış.***
***Bir anda könlümdən qovdu dərdimi,***
***Məni ovunduran dillərə alqış.***

– Naxçıvan Muxtar Respublikası coğrafi cəhətdən elə bir ərazidə yerləşir ki, burada qısa bir müddət ərzində belə gözəlliyi yaratmaq özü bir hünərdir. Üstəgəl, Naxçıvan 20 ildən artıqdır, blokadada yaşayır. Bununla belə, burada görülən işlər həm öz həcmi, həm də istiqaməti ilə blokada çətinliklərini naxçıvanlılara unutdurub. Burada olduğum bir neçə gün ərzində müşahidə etdiyim o oldu ki, həmyerlilərimiz ancaq qurmaq, yaratmaq əzmilə çalışırlar. Bu hisslər onların yaşam tərzinə çevrilib. Bu, torpağa sevginin ifadəsidir. Mən belə sevgini ən böyük dəyər sayıram.

***– Şeirlərinizdə Tomris anadan, Sara xatundan, Məhsətidən gələn mənəvi dəyərlər öz geniş poetik ifadəsini tapıb. O mənəvi saflığın dolğun ifadəsi həmin şeirlərin bədii mükəmməlliyini təmin edib. İnsan ləyaqəti, təmiz sevgi, digər müsbət insani keyfiyyətlər şeirlərinizdən qırmızı xətt kimi keçir.***

– Azərbaycan qadını tarixən mübariz olub, qoçaq olub. Yeri gələndə çiyninə silah alıb, düşmən üzərinə gedib. Öz namusunu, torpağını qoruyub. Həyata gətirdiyi övladlarını da bu ruhda böyüdüb. Onlar tarixin səhifələrində özlərinə əbədi yer qazanmaqla bizə ərməğan olunmuş dəyərlər bəxş ediblər. Şeirlərimdə bu mövzulara müraciət etməyim biz qadınlara olunmuş tövsiyələrin bədii ifadəsidir.

***– Kəmalə xanım, yaradıcılığınız dövlətimiz tərəfindən yüksək dəyərləndirilib. Ayrı-ayrı vaxtlarda sizə “Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi” və “Əməkdar İncəsənət xadimi” fəxri adları verilib. Prezident təqaüdünə layiq görülmüsünüz. İlhamınız doğma Naxçıvanımızdan qaynaqlandığı kimi təltiflərinizin, mükafatlarınızın təməlində də bu yurd yeri dayanır...***

– Ölkəmizdə, o cümlədən muxtar respublikamızda şeir, sənət adamına, qələm sahiblərinə hərtərəfli dövlət qayğısı, onların yaradıcılıqlarının yüksək səviyyədə qiymətləndirilməsi ən gözəl vətənpərvərlik, mənəvi kamillik nümunəsidir. Qismətimə düşənlər, əməyimə dövlətimizin verdiyi qiymət mənim məsuliyyətimi qat-qat artırıb.

***– Son olaraq. Bir sıra xarici ölkələrdə olmusunuz. Doğma Azərbaycanı təmsil etmisiniz...***

– Olduğum ölkələrdə çalışmışam ki, doğma Azərbaycanı təbliğ edə bilim. Bu, hər bir sənət adamının amalı olmalıdır. Adını çəkdiyimiz xarici ölkələrdə belə bir respublikanın mövcudluğuna inanmayanlarla rastlaşmışam. Təəssüf hissi keçirmişəm. Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycanda hakimiyyətə gəlişindən sonra dahi rəhbərin ciddi səyləri, şəxsi nüfuzu respublikamızı hər yerdə tanıtdı. Müstəqillik qazandığımız illərdə bu siyasət davam etdirildi və bu gün də davam etdirilir. Artıq dövlətimiz dünyada tanınır, qəbul edilir, beynəlxalq aləmdə söz sahibidir. Bununla qürur hissi keçirməmək, Azərbaycanın bu gününə sevinməmək olarmı? Doğma diyarımız Naxçıvana baxın. Şair istəyir ki, söz qoşsun, bəstəkar istəyir ki, nəğmə bəstələsin, rəssam istəyir ki, bu gözəllikləri tabloya köçürsün. Bu günü gözəl olan Naxçıvanın sabahı bundan da təravətli olacaq.

*A yurdum, qurbanam bu vüsalına,*
*Bu gözəl çağına, bu cəlalına,*
*Axır ki, qovuşdun istiqlalına,*
*Sabaha aparan yollara alqış.*

***– 80 yaşınız mübarək, Kəmalə xanım.***

**Muxtar MƏMMƏDOV**

*Milli dəyərlərimizi öyrənək və yaşadaq*

## Milli mətbəx mədəniyyətimiz təbliğ olunur

***Zəngin tarixə malik olan mətbəximiz milli mədəniyyətimizin mühüm tərkib hissəsidir. Elə bu səbəbdən xalq yaradıcılığının ən qədim sahələrindən olan kulinariya mədəniyyətinin sistemli şəkildə öyrənilməsi, inkişaf etdirilməsi və təbliğ olunması məqsədilə muxtar respublikamızda genişmiqyaslı tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2009-cu il 9 aprel tarixli Sərəncamı ilə "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzinin yaranması və fəaliyyətə başlaması milli yeməklərimizin yaşadılması, qorunması, təbliği istiqamətində atılan mühüm addımlardan biridir. Xalqımızın milli dəyərlərinin tərkib hissəsi olan milli mətbəximizin özünəməxsusluğunun təbliği ilə yanaşı, ailələrdə milli mətbəxlə bağlı adət-ənənələrin qorunub saxlanması işinə töhfə vermək üçün mərkəz öz imkanlarından geniş istifadə edir.***

Mərkəzin direktoru Türkay Səfərzadə ilə görüşüb onların fəaliyyəti ilə maraqlandıq. O, söhbət zamanı bildirdi ki, turistlərin maraq dairəsinin əsasını təşkil edən milli kulinariyamızın bugünkü vəziyyəti barədə xeyli danışmaq olar. Milli mətbəximizin qorunub saxlanması, onun elmi-tarixi əsaslarla lazımınca inkişaf etdirilməsi, milli yeməklərimizin başqaları tərəfindən özününküləşdirilməsinin qarşısının alınması istiqamətində əsaslı addımlar atılır. Milli kulinarlarımızın layiqincə təqdim olunması üçün peşə hazırlığı səviyyəsi yüksəldilir. Müasir dövrə qədər gəlib çatmamış, lakin çox yüksək qiymətə layiq olan elə milli yeməklərimiz var ki, biz onları bu gün milli mətbəximizə qaytarmalıyıq. Əgər ölkəyə gələn turistlərin yaddaşında milli yeməklər daha çox qalırsa, deməli, biz də bunu nəzərə alaraq milli kulinariyamızın təbliğində fəal olmalıyıq. Elə mərkəz də unudulmaqda olan bir sıra mətbəx nümunələrimizə bu məqsədlə yeni həyat bəxş edib. Belə mətbəx nümunələri içərisində "Şıppır qovurması" adlı yemək növünü misal çəkmək olar. Şahbuz rayonunda yaşadılan şıppır qovurması Batabat, Biçənək, Kükü kəndləri, həmçinin Qanlıgöl yaylağından toplanan eyniadlı bitkidən hazırlanır. Digər qədim mətbəx nümunələrimizdən Ordubad rayonuna məxsus kömbə kökə bişirilmə üsulu ilə fərqlənir. Əsasən, Ordubad rayonunun Dırnıs kəndinə xas olan bu kökə ilaxır çərşənbədə hazırlanır.



Direktorun sözlərinə görə, mərkəz tərəfindən qədim mətbəx əşyaları və onların istifadə qaydaları da öyrənilir. Milli mətbəxlə bağlı folklor nümunələri toplanılır, qədim mətbəx nümunələrimizi tanıtmaq məqsədilə müsabiqələr, festivallar təşkil edilir. Həmçinin turizmin inkişafı və turistlərin sağlam qidalanması üçün mətbəx turizminin və restoran biznesinin beynəlxalq tələblər səviyyəsində qurulmasına köməkliklər göstərilir. Dünya xalqlarının milli mətbəxləri və kulinariya mədəniyyətləri öyrənilərək ümumiləşdirilir. Kulinariya sahəsində bacarıqlı və istedadlı mütəxəssisləri müəyyən etməklə onlara hərtərəfli yardımların göstərilməsində və kulinariya sahəsində ixtisaslı kadrların hazırlanmasında əsaslı işlər görülür. Mərkəz milli mətbəxlə bağlı buklet və kitabların nəşrə hazırlanmasını da diqqətdə saxlayır. Belə ki, 2013-cü ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli Sərəncamına əsasən "Naxçıvan mətbəxi" adlı, 2016-cı ildə isə Naxçıvan folklorunda mətbəx elementlərindən bəhs edən kitablar hazırlanıb. Ötən il keçirilən "Yaradıcı əllər", "Çörək", "Plov", "Kətə" festivallarında mərkəzin yaxından iştirakı təmin olunub. Festival çərçivəsində təşkil edilən müsabiqələrdə münsiflər heyəti kimi milli yeməklərin qiymətləndirilməsində yaxından iştirak edilib. Cari il iyun ayının 10-da "Milli mətbəximizi tanıdaq" başlığı altında "Ən qədim təndir yeməyi" müsabiqəsi keçirilib. Qaliblər Mədəniyyət və Turizm Nazirliyinin diplomları ilə mükafatlandırılıblar. Bu günlərdə isə "Ən dadlı Naxçıvan şirniyyatı" müsabiqəsinə yekun vurulub.

Söhbət zamanı onu da öyrəndik ki, "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq sərəncamının icrası məqsədilə "Naxçıvan Mətbəxi" Kulinariya Mərkəzi ilə Naxçıvan Regional Peşə Tədris Mərkəzi arasında müqavilə bağlanılıb. Müqaviləyə uyğun olaraq mərkəzin mütəxəssisləri tərəfindən Naxçıvan Regional Peşə Tədris Mərkəzinin aşpaz köməkçisi kurslarında təhsil alan müdavimlərə mütəmadi olaraq seminar dərslər təşkil edilib. Cari il avqust ayının 14-dən etibarən hər gün 6 saat olmaqla, 2 ay müddətində həmin kurslarda təhsil alan tələbələrə ixtisas dərsləri tədris edilərək kulinariya sahəsində peşəkar kadrların hazırlanmasına başlanılıb.

Qeyd edək ki, ölkəmizdə və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında bu istiqamətdə həyata keçirilən bütün tədbirlər son illər ərzində xalqımızın milli və mənəvi, maddi və mədəni sərvətlərini özününküləşdirmək istəyən, xalqımıza məxsus bir sıra milli yeməklərimizi, o cümlədən plovu, dolmanı, basdırmanı, kababı, dovğanı öz adlarına çıxmağa çalışan bədnam qonşularımıza da tutarlı bir cavabdır.

**Gülcamal TAHİROVA**

*Unudulmuş peşələr*

## Faytonçuyam, atım qara...

***...Onunla ötən il qarşılaşmışdım. Dostum, bəlkə də, 30 il olardı ki, Naxçıvana gəlmirdi. "Təbriz" mehmanxanasının qarşısında görüşdük. O, faytona minib Naxçıvan şəhərini qarış-qarış gəzmək istədiyini dedi. Şəxsi avtomobilim yaxınlıqda idi, avtomobillə gəzdirmək təklif etsəm də, qəbul etmədi, – mən bu faytonla doğma şəhərimi, onun mənə əziz olan ünvanlarını gəzmək istəyirəm, yəqin ki, sən məni daha yaxşı anlayarsan, – dedi.***

Sözsüz ki, yazının əvvəlindəki sətirlər sizdə çox suallar yaratdı, öz-özünüzə, görəsən, bu hansı zamandan, hansı məkandan, kimdən yazır? İllərdir, şəhərdə nəinki fayton, heç at arabası da görünməyib, – dediniz. Bəli, elədir, əziz oxucular, çox istərdim ki, Naxçıvanla bağlı bugünkü əhvalatlarda faytonun və faytonçunun da adı keçsin: "fayton filan yerdə dayanmışdı, faytonçu müştəriyə belə dedi" kimi ifadələr işlədilsin. Elə bu səbəbdəndi ki, bu yazını tamamən təxəyyül məhsulu ilə başladım, yəni ilk sətirlər sırf düşündüklərimdən ibarət idi.

Hələ avtomobil ixtira edilməzdən əvvəl at arabaları insanın uzun məsafələrə yük daşımasına kömək edən nəqliyyat vasitələrindən olub. Kənd camaatının dediyinə görə, Şahbuz rayonunun Daylaqlı kəndinin də adı üçtəkərli at arabalarından götürülüb. At arabaları bir neçə peşə sahəsini – dülgərliyi, boyaqçılığı, dəmirçiliyi, dəri emalını, nalbəndliyi inkişaf etdirib. Tarixən Azərbaycanın da daxil olduğu bölgələrdə at arabaları ən önəmli nəqliyyat vasitələri kimi ortaya çıxıb. Folklorumuzda at arabalarıyla bağlı çox sayda deyimlər, bayatılar mövcuddur. Belə arabalar təkcə nəqliyyat vasitəsi kimi deyil, həm də uzaq məsafələrə məktub aparmaq, yük daşımaq üçün əvəzolunmaz idi. At arabası ustaları, əsasən, ağac materiallarından istifadə edir, hər bir usta belə arabalarda öz məharətini göstərməyə çalışırdı. Araba ustalarının o dövrdə yaxşı dolanışığı olduğu üçün, şagirdlər də bu ustaların yanına axın edir, beləliklə də, bu peşə, necə deyərlər, öz həyatını sürürdü.

Daha sonra insanlar bu arabalarda yol getmənin çox çətin olduğunu dərk etdilər. Çünki o zaman asfalt yollar yox idi, təbii şərtlər yolçuları yorurdu. Və beləliklə, ustalar o zamana görə daha müasir olan rahat və üstüörtülü at arabaları düzəltməyə başladılar. Beləliklə, ilk faytonlar yarandı. "Fayton" sözü isə dilimizə fransız dilindən keçdi. Kökü yunan mifologiyasına qədər gedib çıxan bu kəlmə Günəş tanrısı Heliosun oğlu Faetona dayanırdı. Rəvayətə görə, Faeton atasının günəş arabasını istifadə etmək üçün icazə alır. Ancaq atlar ona ram olmaq istəmirlər və çox keçmir ki, Faeton atlar üzərindəki hakimiyyətini itirir, atlar od püskürdükləri üçün bütün dünyada yanğınlar baş verir. Zevs daha çox zərər dəyməsinin qarşısını almaq üçün Faetonu şimşək ilə vurur. Sonra da Faeton indi "Po" çayı adlandırılan Eridanus çayına düşür və od sönür.

Günümüzdə dünyada çox sayda fayton növündən turizm sahəsində istifadə edilir, gəzinti üçün qeyri-adi sayılan bu nəqliyyat vasitələrindən xeyli miqdarda qazanc götürülür. Təkcə bir faktı qeyd edək ki, son illərdə qonşu ölkələrdə çox sayda, müxtəlif çeşiddə fayton istehsal edən firmalar fəaliyyət göstərir, bu firmalar öz məhsullarını dünya ölkələrinə bahalı avtomobil qiymətinə ixrac edirlər. Böyük şəhərlərin görməli yerlərində müxtəlif ayaqüstü yeməklərin satılması üçün bərbəzəkli, milli ornamentlərlə bəzədilmiş fayton vaqonlardan istifadə edirlər.

Yaşlı insanlarla söhbətlərdən belə məlum olur ki, Naxçıvan şəhərində də faytonçu peşəsilə məşğul olan çox sayda insan olub. Ancaq sonradan yavaş-yavaş bu peşə unudulmağa başlayıb. Əvvəllər toy mərasimlərində oğul ataları körüklü faytonlarda gəlin köçürməyə üstünlük verirdilərsə, sonradan bər-bəzəkli, aynalı, asma fənərli faytonları avtomobillər əvəz edib.

Bu gün dünyanın müxtəlif ölkələrinə səyahət edib övladları ilə birgə atla, faytonla gəzintiyə çıxanlar az deyil. Son illərdə Naxçıvanda müxtəlif peşələrin yenidən həyata qaytarılması faytonçuluğun da yenidən dirçəldilməsinə ümidlər yaradır. Belə olarsa, bu həm muxtar respublikaya gələn turistlər, həm də yerli sakinlər üçün əvəzedilməz hədiyyə olar.

**Səbuhi HÜSEYNOV**

*İdman*

## Milax və Ərəfsə kəndlərində kikboksinq bölmələri fəaliyyətə başlayıb

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, muxtar respublikada fəaliyyət göstərən idman federasiyaları bu sahənin inkişafı, ictimaiyyət arasında geniş vüsət alması üçün mütəmadi işlər görürlər. Son günlər isə federasiyaların kəndlərdə yeni yaradılan bölmələrinin fəaliyyəti, gənclərin idmana cəlbi ənənə halını alıb. Belə bölmələrdən biri də Culfa rayonunun Milax və Ərəfsə kəndlərində fəaliyyətə başlayan kikboksinq bölməsidir.



Naxçıvan Muxtar Respublikası Şərq Döyüş Sənəti Federasiyası tərəfindən yaradılan yeni bölmə artıq idmançıların ixtiyarına verilib. Uşaq və yeniyetmə idmançılar məşqləri məşqçi-müəllim Etibar Qəribovun rəhbərliyi altında keçəcəklər. Milax kənd tam orta məktəbinin idman zalında keçirilən məşqlərdə 35-ə yaxın idmançı iştirak edir. Ərəfsə kənd tam orta məktəbinin idman zalında isə 20-dən çox uşaq və yeniyetmə kikboksinqin sirlərini öyrənir. Hər iki kənddə həftədə 6 dəfə olmaqla, idmançılar üçün məşqlər keçiriləcək.

Məşqçi-müəllim bildirdi ki, bölmələrin yeni fəaliyyətə başlamasına baxmayaraq, müraciət edənlərin sayı gündən-günə artmaqdadır. Bu, elə bir idman növüdür ki, cəldlik və çevikliklə yanaşı, insanda dözüm də tələb edir. Uşaqların bu növə maraq göstərməsi ilk olaraq yaradılan şəraitlə bağlıdır. Çünki federasiya uşaqların mütəmadi məşq etmələri üçün geniş idman zalı və rahat şərait yaradıb. Qarşıda duran əsas məqsədimiz Culfa rayonunda kikboksinq idman növünün kütləviliyini təmin etməkdir. Daha sonra idmançılarımızı yaxşı hazırlayıb muxtar respublika birinciliklərində uğur qazanmaq istəyirik. Belə potensiallı idmançılarımız var.

## Dünya çempionatında naxçıvanlı idmançı da mübarizə aparacaq

Naxçıvan Muxtar Respublikası Şərq Döyüş Sənəti Federasiyasının nəzdindəki idman növləri üzrə qazanılan uğurlar bu sahəyə marağı artırıb. Təsadüfi deyil ki, istər muxtar respublika, istər ölkədaxili, istərsə də beynəlxalq yarış və turnirlərdə qazanılan medalların müəyyən hissəsi bu federasiyanın payına düşür.



18-21 oktyabr tarixləri arasında Bakı şəhərində qrappling idman növü üzrə dünya çempionatı keçiriləcək. Qürurverici haldır ki, dünyanın ən güclü idmançılarının mübarizə aparacağı bu mundialda Şərq Döyüş Sənəti Federasiyasının idmançısı da mübarizə aparacaq. Belə ki, uşaq, yeniyetmə, gənclər və veteranlar arasında keçiriləcək dünya çempionatında Azərbaycan millisinin heyətində naxçıvanlı idmançı Fərid Məhərrəmov tatami üzərinə çıxacaq. 12-13 yaşlı idmançıların kateqoriyasında mübarizə aparacaq idmançımızı dünya çempionatına Azərbaycan Respublikası idman ustası Xəyal Abdullayev hazırlayır.

Artıq bir ildən çoxdur ki, bu idman növü ilə məşğul olan Fərid Məhərrəmov kifayət qədər uğura imza atıb. Belə ki, MMA Qarışıq İdman növləri üzrə muxtar respublika çempionu olan Fərid qrappling üzrə Azərbaycan çempionu və Açıq Bakı Kubokunun da qalibidir. O həmçinin Braziliya jiu-jitsu idman növü üzrə beynəlxalq turnirdə də fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb.

Yarışa hazırlığı ilə bağlı Fərid Məhərrəmovun fikirlərini öyrəndik. O dedi: "Məşqçim Xəyal Abdullayevin rəhbərliyi ilə dünya çempionatına hazırlığımız intensiv olaraq davam edir. Məşq etməyim üçün federasiya tərəfindən hər bir şərait yaradılıb. Məqsədim Bakıda keçiriləcək dünya çempionatının qalibi olmaq və mənə göstərilən etimadı doğrultmaqdır. İlk dəfədir ki, belə böyük yarışda iştirak edəcəyəm. Digər yarışlarla müqayisədə dünya çempionatında uğur qazanmaq hər bir idmançının arzusudur. Mən də çalışacağam ki, özümün və məşqçimin çəkdiyi əziyyət hədər getməsin və federasiyamızın uğurlarında mənim də payım olsun".

Biz də, öz növbəmizdə, idmançımıza uğurlar arzulayırıq.

**Ceyhun MƏMMƏDOV**


***İtmişdir***

Əliyev Aydın İsa oğlunun adına verilmiş ümumvətəndaşlıq pasportu itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Qaraxanbəyli kəndində yaşamış Rzayeva Həvvabəyim Mirbaba qızının adına olan JN-2015$^{A}$ inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Xətai məhəlləsi, döngə 17, ev 6-da yaşayan Hacıyev Qabil Kamil oğlunun adına 29.04.2014-cü ildə verilmiş MH-0035899 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı və 07.04.2014-cü ildə verilmiş AA-008896 nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 800